**Şəffaflığa doğru daha bir addım**

Noyabrın 22-də Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departametində «Azıq qapı günü» keçirilmişdir.

Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departametinin (VCİAD) rəisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Vidadi Məmmədov qonaqları salamlayaraq departamentin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verdi. O, qeyd etdi ki, yaradılmasından 11 ildən artıq vaxt keçən departament ölkəmizin vergi sistemində cinayətlərin ibtidai araşdırılmasını və əməliyyat-axtarış tədbirlərini həyata keçirən struktur kimi formalaşmışdır. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2000-ci ildə nazirliyin tərkibində Hüquq-mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsi, sonra Vergi Cinayətlərinin İbtidai Araşdırılması İdarəsi, 2001-ci ilin iyun ayının 7-də isə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradılmış və bu illər ərzində departament tərəfindən vergi cinayətlərinin vaxtında aşkar edilməsi və qarşısının alınması məqsədilə ciddi işlər həyata keçirilmişdir.

Sonra KİV nümayəndələri departamentin bir il əvvəl istifadəyə verilmiş yeni binası, İstintaq və Əməliyyat idarələri, Təhqiqat, Mühafizə və xidmət şöbələri, Kriminalistika və uçot bölməsi ilə tanış olmuşlar.

Vergilər nazirinin müşaviri Günay Cəfərli öz çıxışında qeyd etdi ki, «Açıq qapı günü»nün Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində keçirilməsində əsas məqsəd KİV nümayəndələrini nazirliyin mühüm fəaliyyət istiqamətlərindən biri olan vergi hüquqpozmaları ilə mübarizə sahəsində görülən işlərlə tanış etməkdir. O, xatırlatdı ki, bu ilin sentyabrında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Açıq hökumətin təşviq edilməsinə dair Milli Fəaliyyət Planı» və «Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı» təsdiq edilmişdir. 2012-2015-ci illəri əhatə edəcək bu fəaliyyət planları ölkədə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsinə, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin «açıq hökumət» prinsiplərinə uyğunlaşdırılmasına yönəldilmişdir.

Qeyd edilmişdir ki, hazırda Vergilər Nazirliyi tərəfindən ölkə başçısının məlum sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə müvafiq tədbirlər planları hazırlanmışdır və onların reallaşdırılması vergi xidməti ilə ictimai qurumlar arasında münasibətlərin daha da dərinləşdirilməsinə, vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumat alma imkanlarının genişlənməsinə şərait yaradacaqır.

G.Cəfərli vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan bütün münasibətlərdə canlı ünsiyyətin minimuma endirilməsi üçün elektron vergi xidmətlərinin geniş tətbiq edildiyini və hal-hazırda Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinə və vergi ödəyicisi olmayan vətəndaşlara 57 növ elektron vergi xidməti göstərildiyini bildirmiş, hər bir elektron vergi xidməti haqqında ayrı-ayrılıqda tədbir iştirakçılarına qısa məlumat vermişdir.

VCİAD-nin İstintaq idarəsinin rəis müavini Miri Bağırov yarandığı gündən departament tərəfindən vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində görülmüş işlər barədə məlumat vermişdir. Qeyd etmişdir ki, departamentdə indiyədək ümumilikdə 3057 cinayət işi başlanmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işləri üzrə 2155 nəfər cinayət törətmiş şəxs müəyyən edilmiş və onlardan 904 nəfəri məsuliyyətə cəlb olunmuşdur. Departamentin icraatında olan işlər üzrə dövlət büdcəsinə 2001-ci ildə 3,7 milyon manat, 2011-ci ildə isə 41,8 milyon manat ödətdirilmişdir. Ümumilikdə, son 11 ildə departamentin icraatında olmuş işlər üzrə 108 milyon manata yaxın məbləğdə vergilər dövlət büdcəsinə ödətdirilmişdir.

Cari ildə departament tərəfindən 358 cinayət işi başlanmış, bunlardan 311-nin istintaqı başa çatdırılmış, o cümlədən 66 cinayət işi tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 245 cinayət işinə vurulmuş ziyan tamamilə ödənildiyinə və digər qanuni əsaslara görə xitam verilmişdir. 2012 ildə tamamlanmış və icraatda olan işlər üzrə 9.936.600 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Departamentin Kriminalistika və uçot bölməsinin rəisi İlqar İbadov vergi orqanlarının səlahiyyətinə aid edilmiş cinayətlərin araşdırılması zamanı kriminal xarakterli məlumatlardan istifadənin təmini, sübutların toplanması, qablaşdırılması, tədqiqində elmi-texniki nailiyyətlərin tətbiq

olunması məqsədilə Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən 2010-cu ilin yanvar ayında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin tərkibində Kriminalistika və uçot bölməsi yaradıldığını bildirmişdir. Bölmədə cinayət işləri və materialların uçotu aparılmaqla hərəkətlərin izləndiyi , cinayət törətmiş şəxslər barədə məlumatların işlənilərək beynəlxalq təcrübə əsasında onların daktofototekasının toplandığı qeyd edilmişdir. Görülmüş kompleks tədbirlər nəticəsində son illər cinayətlərin açılması, dövlətə vurulmuş ziyanın ödətdirilməsi sahəsində xeyli nailiyyətlər əldə olunmuşdur. İ.İbadovun sözlərinə görə, 2000-2011-ci illərdə 2155 şəxs vergi hüquqpozmaları ilə bağlı cinayət əməlləri törətmiş, onlardan 2089-u (96,9%) Azərbaycan Respublikasının vətəndaşları, 66-sı (3,1%) isə əcnəbilər olmuşdur.

Kütləvi informasiya vasitələrinin nümayəndələri Vergilər Nazirliyinin «açıq qapı» siyasətini yüksək qiymətləndirdiklərini və tədbirdən məmnun qaldıqlarını bildirmişlər.

***Həbibə Abdulla,***
«Azadinform»
informasiya agentliyinin müxbiri

Vergilər Nazirliyinin mətbuatla əlaqələrini təqdirəlayiq hesab edirəm. Digər dövlət qurumları ilə müqayisədə Vergilər Nazirliyi mətbuata daha açıq, ictimaiyyət qarşısında daha hesabatlı qurum kimi qeyd edilə bilər. Bugünkü tədbiri də uğurlu və lazımlı bir addım kimi dəyərləndirirəm. Burada vergi xidmətinin mühüm istiqamətlərindən olan vergi hüquqpozmaları ilə mübarizə sahəsində görülmüş işlər haqqında geniş məlumat verildi, yaradılmış şəraitlə əyani tanışlıq imkanı qazandıq. Bütün bu işlər hesabatlılığa, şəffaflığa istiqamətlənmiş addımlardır və alqışa layiqdir. Ümidvaram ki, bu cür tədbirlər davamlı olmaqla yanaşı, digər dövlət qurumları üçün də örnək olacaq.

***Türkay Verdiyeva,***
«Xəzər»
Televiziyasının müxbiri

Bugünkü tədbir şəffaflığın artırılmasına xidmət edir. KİV nümayəndələri məlumatların ictimayyətə çatdırılmasında vasitəçi olduqları üçün dövlət struktuları tərəfindən məlumatların kütləvi informasiya vasitələrinə birbaşa verilməsi olduqca önəmlidir. Bu gün tədbirdə KİV nümayəndələrinə istər ötən illər, istərsə də cari il üzrə hüquqpozmalar haqqında olduqca mühüm statistik məlumatlar verildi, VCİAD-nin ayrı-ayrı fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat aldıq. Bunlar nazirliyin fəaliyyətinin obyektiv işıqlandırılması üçün böyük əhəmiyyət daşıyır.

***Bəhram Ruştəmbəyov,***
«1news» informasiya agentliyinin müxbiri

Vergilər Nazirliyi digər dövlət strukturlarına nümunə ola biləcək tədbirlər həyata keçirir. Bugünkü tədbir də həmin sıradandır. Düşünürəm ki, 57 növ elektron xidmət göstərən bir dövlət qurumu öz fəaliyyətində tam şəffaflığa nail ola bilər.

Arzu İBRAHİMOVA